**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**NAZİM MƏMMƏDOV**

# QARABAĞ ZƏFƏRİNİN TARİXİ KÖKLƏRİ VƏ HEYDƏR ƏLİYEV

BAKI — 2023

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin 31 mart 2023-cü il tarixli iclasının 4 saylı protokoluna əsasən nəşr olunur.

**Elmi redaktor:** **Ədalət Qasımov**
tarix elmləri doktoru,dos

**Rəyçilər:** **Adil Baxşalıyev**
tarix elmləri doktoru, professor

**Oktay Sultanov**
tarix elmləri doktoru, professor

**İbrahim Zeynalov**
tarix elmləri doktoru, professor

**Məmmədov Nazim Rəhbər oğlu.** Qarabağ zəfərinin tarixi kökləri və Heydər Əliyev. Bakı-"OPTİMİST"MMC-çap mərkəzi-2023, 248 səh.

*Kitabda - Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq-iqtidar birliyi, Qardaş Türkiyənin mənəvi dəstəyi, ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilham alaraq şanlı qələbə və qəhrəmanlıq salnaməsindən bəhs olunur. Eyni zamanda Qarabağ zəfərinin tarixi köklərində ümummilli lider Heydər Əliyevin reallaşdırdığı inkişaf konsepsiyasının rolu işıqlandırılmışdır.*

ISBN 978-9952-561-33-3

© *"OPTİMİST"MMC-çap mərkəzi-2023*

## MÜNDƏRİCAT

GİRİŞ. ........................................................................ 6
I FƏSİL. Heydər Əliyevin həyatından qısa xülasə... 25
II FƏSİL. Qarabağ zəfərinin tarixi kökləri və Heydər Əliyev........................................................ 79
Nətiiicə....................................................................... 189
İstifadə olunmuş ədəbiyyat .................................. 222



*Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram...İndi Azərbaycan üçün bir amal,bir məqsəd var: Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təmin etmək. Kimin əlindən nə gəlirsə,bu amal, bu məqsəd naminə etməlidir.*

**Heydər ƏLİYEV,**
Ümummilli lider



*Dünya azərbaycanlılarının mütəşəkkilliyinin möhkəmlənməsi, soydaşlarımızın milli birlik və həmrəyliyinin, sözün həqiqi mənasında, təmin edilməsi ümummilli liderimiz Heydər ƏLİYEVİN ən böyük arzularından biri idi... Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, Azərbacanın ərazi bütövlüyünü təmin etmək, demokratik cəmiyyət qurmaq... Azərbacanda bu siyasətin alternativi yoxdur".*

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti

## GİRİŞ

Vətən müharibəsi – İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın Zəfəri respublikanın müasir tarixində keyfiyyət dəyişikliyi yaratmaqla birlikdə, ötən tarixi dövrdə baş verən hadisələrin də yenidən nəzərdən keçirilməsinə tələbat yaratmışdır. Faktiki olaraq Qarabağ tarixinə dair müasir konsepsiyanın hazırlanmasına ehtiyac yaranmışdır. Burada Zəfər tarixinə dair elmi-nəzəri baxışın müəyyən edilməsi, əsas məsələlərin kompleks şəkildə tədqiqi və uyğun elmi nəticələrin çıxarılması ilə praktik tövsiyələrin hazırlanması mühüm yer tutur. Eyni zamanda Qarabağda qazanılan qələbənin tarixi kökləri və bu zəfərdə ümummilli lider Heydər Əliyev amilinin təhlili mövzunun aktuallığını artırır.

Prezident İlham Əliyev 44 günlük müharibədə tarixi Zəfərdən sonra, Respublika tarixinin fundamental məsələlərinin müəyyən edilməsi və onların öyrənilməsi sahəsində mühüm müddəalarla çıxış etmişdir. Onların arasında müasir Azərbaycan tarixini dəyişən İkinci Qarabağ müharibəsinə dair fikirlər xüsusi yer tutur. Prezident İlham Əliyev çıxışlarından birində demişdir: "İkinci Qarabağ müharibəsi, bir daha demək istəmirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər

məlumatlar var və təkrar etmək istəyirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar"[1]. Əlbəttə Azərbaycan Prezidenti İlham Əliyevin yuxarıdakı dəyərli fikir mövzunun aktuallığına şübhə yeri qoymur.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrü (1969-1982-ci illər) müstəqillik uğrunda mübarizənin siyasi-ideoloji və iqtisadi zəmininin formalaşdırılmasında xüsusi bir mərhələ kimi ayrılır. Heydər Əliyev Moskvada SSRİ rəhbərlərindən biri kimi yüksək vəzifədə çalışdığı zaman da (1982-1987-ci illər) Azərbaycanın mövqelərinin həm siyasi, həm də iqtisadi cəhətdən möhkəmləndirilməsi sahəsindəki fəaliyyətini uğurla davam etdirmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamında qeyd edilir ki, "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamız-

da sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir. Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir"[2].

Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir və sanballı şəxsiyyətlərdən biri, qüdrətli dövlət xadimi, dünya şöhrətli siyasətçi və əvəzedilməz lider – Heydər Əlirza oğlu Əliyev Azərbaycan tarixinin parlaq səhifələrini yazaraq ölkənin salnaməsində dərin iz qoymuş, sözün həqiqi mənasında, onu qurub-yaratmışdır. Heydər

Əliyev böyük zəhməti, tükənməz enerjisi, işıqlı zəkası və dəmir iradəsi ilə daim xalqının, vətəninin, dövlətinin xidmətində dayanmışdır. Həyatımızın ən çətin, mürəkkəb məqamlarında Heydər Əliyev özünün xilaskarlıq missiyası ilə xalqının köməyinə çatmışdır. Müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələri, heç şübhəsiz ki, Heydər Əliyevin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Respublikaya otuz dörd illik rəhbərliyi dövründə Azərbaycanın inkişafında, xüsusən iqtisadiyyatın dirçəlişində, sosial vəziyyətin yaxşılaşdırılmasında, dövlət müstəqilliyinin möhkəmləndirilməsində onun xidmətləri ölçüyəgəlməzdir.

Heydər Əliyev böyük və mənalı ömrünün hər anını xalqının tərəqqisi və rifahına sərf etmiş, onun dünya xalqları arasında şərəfli yer tutmasına, doğma yurdu Azərbaycanın nüfuzunun yüksəlməsinə həsr etmişdir. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, istər Naxçıvanda adi dövlət məmurundan SSRİ kimi nəhəng imperiyanın başçılarından birinə qədər yüksəldiyi totalitar sovet cəmiyyətində, istər düşmən məngənəsində ölüm-dirimlə çarpışan Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə, Azərbaycan Respublikasının Prezidenti olduğu müstəqillik dövründə də o yalnız bu amallarla yaşamış, öz xalqına xidməti həyatının mənası, fəaliyyətinin məramı hesab etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1980-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sosial potensialına böyük dəstəkdir. Əgər o dövrdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı bu gün Azərbaycanın iqtisadi potensialı bir o qədər də güclü ola bilməzdi. İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, xalqa, millətə bağlılığı ölkəmiz üçün böyük işlər görmək üçün gözəl şərait yaratmışdır" [3].

XX yüzillikdə Azərbaycan xalqı böyük tərəqqi dövrü yaşamış, ictimai, iqtisadi, mədəni həyatda əzəmətli uğurlara nail olmuş, xüsusən Sovet hakimiyyəti illərində Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmış, xalqın təhsil, mədəni səviyyəsi xeyli artmış, iqtisadiyyatın yeni sahələri təşəkkül tapmış, maddi rifahı yaxşılaşmışdı.

Onu da qeyd etməyimiz yerinə düşərdi ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

